

*Aqil Müşavi*
*Rusiya Federasiyasının*
*Yaroslavl şəhəri*

## Ulu Kəlbəcər

Amandır, ay ellər, imdad eyləyin -
Ömrüm Kəlbəcərsiz zay olub gedir.
Haçandır qalmışam boynu bükülü,
Torpağım düşmənə pay olub gedir.

Oruclu, Ağcakənd girir yuxuma,
Çaykənd xəyalımda gəlir yaxına.
Ömür-gün tələsir düşüb axına -
Neçə bahar gəlir yay olub gedir.

Bəs niyə boşaldı dolu Kəlbəcər?
Cənnət qapısının yolu Kəlbəcər.
Ziyarət məkanı ulu Kəlbəcər
Yaddan çıxanlara tay olub gedir.

Ay Aqil, dövranmı belə dönübdü,
Alışan ürəklər külə dönübdü.
Mənim göz yaşlarım selə dönübdü,
Axıb yanağımdan çay olub gedir.

## Qəhrəman şəhər

Yenə qara bulud aldı göyləri,
Üstünə mərmilər yağdı, a Tərtər.
Şücaət göstərdin düşmən önündə,
Üzün yer üzündə ağdı, a Tərtər.

Bir yanın yaylaqdı, bir yanın aran,
Bir yanın Bərdədir, bir yanın Goran.
Heç sənə yaraşmır bu gülləbaran,
Hər yanın bağçadı, bağdı, a Tərtər.

Burda hər qarışda bir şəhid izi,
Vətən sevgisinin sönməyən közü.
Ana torpağına can qıyan qazı
Qələbə gözləyir, sağdı, a Tərtər.

ədalət.-2017.-1 mart.-S.4.